# QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

## Bir ömrün işığında: insanlığa xidmətin ali nümunəsi



4


SƏS

№ 033 (7443)

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

1 may 2026-cı il.
Qiymәti 1 manat


# Azərbaycanın qələbə soraqlı idmançıları!



3

*Prezident İlham ƏLİYEV: "Azərbaycan güləşçiləri bir daha göstərdilər ki, onlar Avropada birincidirlər"*

# Moskva İrəvana PUA texnologiyası verir?



7

## Robotlar insanları əvəz edir? Bizi nə gözləyir?



5

## Distant təhsil effektiv alternativdir



7

## Tramp "İran bataqlığından" çıxa bilmir...



8

## Qonşu səs-küy salırsa, necə cərimələnə bilər?



8

## Ailənin cəmiyyətdə rolu milli dəyərlərə əsaslanır



5



# Azərbaycan–Ukrayna: strateji tərəfdaşlıq

**Prezident İlham Əliyev: "Azərbaycan və Ukrayna bütün beynəlxalq təşkilatlarda qarşılıqlı olaraq ölkələrin suverenliyini, ərazi bütövlüyünü dəstəkləyir və dəstəkləyəcəkdir"**

2026-cı il aprelin 25-də Qəbələdə Azərbaycan Prezidenti İlham Əliyev və Ukrayna Prezidenti Volodimir Zelenski arasında keçirilən görüşlər və mətbuata verilən bəyanatlar hər iki ölkə arasında strateji tərəfdaşlığın ardıcıl və sistemli şəkildə inkişaf etdiyinin təzahürüdür. Təkbətək, eləcə də geniş tərkibdə keçirilən danışıqlar münasibətlərin yalnız siyasi səviyyədə deyil, həm də çoxşaxəli əməkdaşlıq platformasına çevrildiyini təsdiqləyir.

Qeyd edək ki, Azərbaycanla Ukrayna arasında diplomatik əlaqələr 31 yanvar 1992-ci ildə yaradılıb. 1996-cı ildə Ukraynanın Azərbaycanda, 1997-ci ildə isə Azərbaycanın Ukraynada səfirliyi açılıb. Azərbaycan və Ukrayna xalqları arasında əlaqələr uzun illərin tarixinə malikdir. Bu əlaqələrin təməli hələ XX əsrin əvvəllərinə, hər iki ölkənin Sovet İttifaqı tərkibində olduğu dövrə təsadüf edir. Bu illərdəki əlaqələr SSRİ tərkibində mərkəzləşdirilmiş şəkildə qurulsa da, xalqlar arasında qarşılıqlı ünsiyyət və əməkdaşlıq müəyyən səviyyədə inkişaf etmişdi. Son illərdə dövlət başçılarinin qarşılıqlı səfərlər əlaqələri daha da möhkəmləndirib. "2022-ci ilin yanvarında Kiyevə səfərimi xatırlayıram. Sizinlə (Volodimir Zelenski – red.) apardığımız fikir mübadiləsi və ondan sonrakı təmaslar Ukrayna-Azərbaycan əlaqələrini daim yüksək səviyyəyə qaldırmışdır. Əməkdaşlığımızın çox güclü siyasi təməli vardır". Bu sözləri Prezident İlham Əliyev Ukrayna Prezidenti Volodimir Zelenski ilə mətbuata bəyanatında söyləyib. Dövlətimizin başçısı qeyd edib: "Azərbaycan ilə Ukrayna bütün beynəlxalq təşkilatlarda qarşılıqlı olaraq ölkələrin suverenliyini və ərazi bütövlüyünü dəstəkləyir və dəstəkləyəcək".

Söhbət zamanı dövlətimizin başçısının Volodimir Zelenski ilə əvvəlki görüşləri məmnunluqla xatırlanıb. Ukrayna Prezidentinin ölkəmizə bu səfərinin ikitərəfli əməkdaşlıq məsələlərinin müzakirəsi üçün yaxşı imkan yaradacağına əminlik bildirilib. Əməkdaşlığın bir çox istiqamətdə, o cümlədən enerji sahəsində genişləndirilməsinə dair fikir mübadiləsi aparılıb, kənd təsərrüfatı ilə bağlı əməkdaşlıq məsələləri müzakirə olunub, Hökumətlərarası Komissiyanın fəaliyyətinə toxunulub.

### VOLODİMİR ZELENSKİ: "BEŞ YÜZDƏN ARTIQ UKRAYNALI UŞAQ BURADADIR VƏ BU DƏSTƏYƏ GÖRƏ SİZƏ MİNNƏTDARIQ"

Ukrayna Prezidenti Volodimir Zelenski ilə aparılan danışıqların nəticələri göstərir ki, tərəflər mövcud əlaqələri sadəcə qorumaq deyil, onları keyfiyyətcə yeni mərhələyə çıxarmaq niyyətindədir. Azərbaycanın xarici siyasət strategiyasında dövlətimizin gücünü təcəssüm etdirən mühüm istiqamətlərdən biri humanitar diplomatiyadır. Bu, ölkəmizin humanist mövqeyini açıq şəkildə nümayiş etdirir. Belə ki, Azərbaycan hər zaman yardıma ehtiyac duyan, çətin duruma düşən ölkələrin yanında olub.

Ölkəmizin Ukraynaya humanitar dəstəyini, eyni zamanda, Azərbaycan dövləti tərəfindən ukraynalı uşaqlara olan diqqət və qayğını yüksək qiymətləndirən qonaq bütün bunlara görə Prezident İlham Əliyevə minnətdarlığını bildirib. "Enerji sahəsində təchizata gəldikdə, belə çox ağır bir dövrdə biz 11 yardım paketi almışıq. Azərbaycana bu yardıma görə öz təşəkkürümüzü bildiririk. Siz bizim uşaqlarımıza kömək edirsiniz. Uşaqlarımız, övladlarımız cəbhəyanı bölgələrdən gəlirlər. Onlar əzab-əziyyətlərlə üzləşiblər, müharibədən əziyyət çəkiblər. Beş yüzdən artıq ukraynalı uşaq buradadır və bu dəstəyə görə Sizə minnətdarıq", - deyə Ukrayna Prezidenti vurğulayıb.

Son illər dövlət başçıları arasında intensiv təmasların artması əlaqələrin dinamik inkişafından xəbər verir. Dörd il ərzində yeddi dəfə keçirilən görüşlər, o cümlədən beynəlxalq tədbirlər çərçivəsində aparılan dialoqlar siyasi əlaqələrin institusional və davamlı xarakter aldığını göstərir. "Keçən il iki mühüm hadisə baş vermişdir. Bakıda Xarici İşlər nazirliklərinin məsləhətləşmələri və Hökumətlərarası Komissiyanın iclası keçirilmişdir. Bu gün söhbət əsnasında bu tədbirlərin Ukraynada növbəti dövrdə keçirilməsi haqqında da fikir mübadiləsi aparılmışdır. Bir sözlə, bu gün biz bir çox istiqamətlər üzrə uğurla əməkdaşlıq edirik. Bu əməkdaşlıq bu gün bir daha təsdiqləndi", - deyə Prezident bildirib.

Müzakirə olunan məsələlər arasında siyasi dialoqdan başqa, energetika sahəsində əməkdaşlıq da diqqətə çəkilib. Dövlət başçısının bildirdiyi kimi, "Burada həm əldə edilmiş nailiyyətlər var, - SOCAR Ukraynada uzun illərdir ki, uğurla fəaliyyət göstərir, - eyni zamanda, çox gözəl perspektivlər, birgə layihələr var. Birgə təşəbbüslər, o cümlədən sərmayə qoyuluşu ilə bağlı məsələlər bu gün ətraflı müzakirə edilmişdir. Təbii ki, ticarət dövriyyəsinin bundan sonra da artırılması məsələləri də gündəliyin mərkəzindədir. Bizim ticarət dövriyyəmiz yarım milyard dolları ötüb. Amma ümid edirəm ki, növbəti illərdə bu rəqəm daha da böyüyəcək. Çünki buna da böyük imkanlar var".

Beləliklə, Qəbələdə keçirilən bu tarixi görüş Azərbaycan və Ukrayna arasında ikitərəfli münasibətlərin inkişafında mühüm mərhələ kimi qiymətləndirilə bilər. Qarşılıqlı etimad, siyasi iradə və ortaq maraqlara əsaslanan bu tərəfdaşlıq gələcəkdə daha geniş miqyasda inkişaf edərək regional və beynəlxalq səviyyədə mühüm rol oynamağa davam edəcəkdir.

***Nəzakət ƏLƏDDİNQIZI***



# Prezident İlham Əliyev Birləşmiş Ərəb Əmirliklərinin nümayəndə heyətini qəbul edib

Azərbaycan Prezidenti İlham Əliyev aprelin 28-də Qəbələdə Birləşmiş Ərəb Əmirliklərinin Xarici İşlər Nazirliyinin Dövlət naziri Səid bin Mübarək Əl-Hacirinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib. Prezident İlham Əliyev strateji tərəfdaşlığa əsaslanan ikitərəfli əlaqələrimizin bütün sahələrdə uğurla inkişaf etdiyini deyərək, bu xüsusda Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti Şeyx Məhəmməd bin Zayed Al Nəhyan ilə dostluq münasibətlərinə toxundu. Prezident İlham Əliyev özünün Birləşmiş Ərəb Əmirliklərinə, Şeyx Məhəmməd bin Zayed Al Nəhyanın isə Azərbaycana, o cümlədən Qarabağa səfərlərini, həmçinin bu səfərlər zamanı aparılmış müzakirələri məmnunluqla xatırladı, bütün bunların əlaqələrimizin genişləndirilməsində mühüm rol oynadığını vurğuladı.

Prezident İlham Əliyev Səid bin Mübarək Əl-Hacirinin ölkəmizə böyük nümayəndə heyəti ilə gəldiyini deyərək, bu səfərin münasibətlərimizin dərinləşdirilməsi baxımından roluna toxundu. Qəbula görə minnətdarlığını bildirən Səid bin Mübarək Əl-Haciri Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti Şeyx Məhəmməd bin Zayed Al Nəhyanın salamlarını dövlətimizin başçısına çatdırdı.

Azərbaycan Prezidenti salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını Şeyx Məhəmməd bin Zayed Al Nəhyana çatdırmağı xahiş etdi. Qonaq dövlətimizin başçısının liderliyi ilə Cənubi Qafqaz regionunda sülh gündəliyinin irəli aparılması prosesində əldə edilmiş uğurlar, həmçinin Azərbaycan ilə Ermənistan arasında sülhün əldə olunması və dialoqun təşviqi istiqamətində göstərdiyi səylərə görə Azərbaycan Prezidentinin "Sülh və Barışıq üçün Gernika mükafatı"na layiq görülməsi münasibətilə təbriklərini çatdırdı.

Təbriklərə görə təşəkkür edən Prezident İlham Əliyev Birləşmiş Ərəb Əmirliklərinin qurucusu, sabiq Prezidenti Şeyx Zayed bin Sultan Al Nəhyanın humanitar irsini və dəyərlərini təşviq edən "Zayed İnsan Qardaşlığı Mükafatı"na layiq görülməsini xatırladı və buna görə Birləşmiş Ərəb Əmirliklərinin Prezidentinə bir daha minnətdarlığını çatdırmağı qonaqdan xahiş etdi.

Görüşdə ölkələrimiz arasında ikitərəfli gündəliyin zəngin olduğu vurğulandı, siyasi, iqtisadi, ticari, enerji, həmçinin bərpaolunan enerji, birgə investisiya fondunun fəaliyyəti, birgə hərbi təlimlər və digər istiqamətlərdə əməkdaşlıq məsələlərinə dair fikir mübadiləsi aparıldı. Söhbət zamanı Yaxın Şərqdəki vəziyyətə toxunuldu, regiondakı bütün məsələlərin diplomatik yolla həll edilməsinin vacibliyi bildirildi.

# Azərbaycanın qələbə soraqlı idmançıları!





*Prezident İlham ƏLİYEV: "Azərbaycan güləşçiləri bir daha göstərdilər ki, onlar Avropada birincidirlər"*








***Azərbaycan özünü dünyada güclü idman dövləti kimi təsdiqləyib və bütövlükdə ölkəmizin dünya arenasında mövqeyi ildən-ilə möhkəmlənir. Dövlətimiz məqsədyönlü siyasətini ardıcıl şəkildə aparır. Prezident İlham Əliyev bu siyasətə imkan yaradan amillər haqqında çıxışlarının birində demişdir: "Azərbaycanda sabitlik, əmin-amanlıq, təhlükəsizlik hökm sürür, genişmiqyaslı quruculuq işləri aparılır. Tarixi Zəfərimiz hər bir azərbaycanlı üçün, hər bir vətəndaş üçün, bütün dünya azərbaycanlıları üçün qürur mənbəyidir. Biz gələcək nəsli də vətənpərvərlik ruhunda tərbiyə edəcəyik, necə ki, bunu həmişə etmişik və elə gözəl gənc nəsil yetişdirmişik ki, həm idman arenalarında ölkəmizin bayrağını qaldırır, həm də döyüş meydanında."***

Bildiyimiz kimi, Albaniyanın paytaxtı Tiranada keçirilən Avropa çempionatında komanda hesabında Avropa çempionu olan sərbəst güləş üzrə Azərbaycan millisi üc qızıl, iki gümüş və bir bürünc medal qazanan yığma 152 xal toplayaraq 6-cı dəfə Avropa çempionu olub.

Buna qədər Azərbaycan güləşin bu növündə 2009, 2017, 2022, 2023 və 2025-ci illərdə qitənin ən güclü ölkəsi olmuşdu. Millimiz Albaniyada medalların əyarına görə, son 17 ilin ən yaxşı nəticəsinə imza atıb.

## "GÜLƏŞİMİZİN BÖYÜK ƏNƏNƏLƏRİ VAR VƏ BİZ BU ƏNƏNƏLƏRİ YAŞADIRIQ"

"Bu qələbə bizim hamımızı sevindirdi. Azərbaycan güləşçiləri bir daha göstərdilər ki, onlar Avropada birincidirlər. Avropa çempionatında komanda hesabında birinci olmaq, əlbəttə ki, böyük nailiyyətdir. Xüsusilə nəzərə alsaq ki, bu gün həm dünyada, həm Avropada güləş üzrə mübarizə daha gərgin keçir, bir çox ölkələrdən olan tanınmış güləşçilər böyük nəticələr göstərirlər və mübarizə də çox gərgin idi. Bəzi yarışları mən də izləmişəm və görmüşəm ki, bizim idmançılarımız öz peşəkarlığını göstərərək rəqibləri ədalətli mübarizədə məğlub etmişlər. Bu, əlbəttə, bütün xalqımızı sevindirir və bir daha göstərir ki, güləşimiz uğurla inkişaf edir. Güləşimizin böyük ənənələri var və biz bu ənənələri yaşadırıq." Bu sözləri aprelin 30-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Albaniyanın paytaxtı Tiranada keçirilmiş Avropa çempionatında komanda hesabında Avropa çempionu olan yunan-Roma güləşi və sərbəst güləş, həmçinin qadın güləşi üzrə medal qazanmış idmançıları və onların məşqçilərini qəbul edərkən bildirib.

## "HƏR DƏFƏ BEYNƏLXALQ YARIŞLARDA BİZİM BAYRAĞIMIZ QALDIRILANDA BÜTÜN AZƏRBAYCAN XALQI QÜRUR HİSSİ KEÇİRİR"

Dünyada idman sahəsində rəqabətin artdığı bir dövrdə Azərbaycan idmançılarının yüzlərlə medal qazanması ölkəmizin daxilində idman və gənclər siyasətinin nə qədər dolğun aparıldığını isbat edir. Bu diqqət və qayğı idmançılar üçün güclü motivasiya mənbəyi olmaqla yanaşı, gənc nəsildə idmana marağı artırır və qalibiyyət ruhunu möhkəmləndirir. Nəticədə, Azərbaycan idmanı təkcə nəticələr baxımından deyil, həm də davamlılıq, peşəkarlıq və beynəlxalq rəqabət qabiliyyəti baxımından yeni keyfiyyət mərhələsinə yüksəlib. Azərbaycanda idmanın inkişafı dövlət siyasətidir və idmanın inkişafına göstərilən bu diqqət, aparılan dövlət siyasəti ildən-ilə daha yaxşı nəticələrə gətirib çıxarır. Bu gün idman sahəsində əldə olunan nailiyyətlər bir daha onu göstərir ki, Azərbaycanda idman uğurla inkişaf edir. Azərbaycan idman ölkəsidir və həm böyüklər, həm gənclər arasında keçirilmiş beynəlxalq yarışlarda bizim idmançılarımız öz gücünü, dövlətimizin qüdrətini nümayiş etdirirlər. İdmançılarımızın beynəlxalq yarışlarda, xüsusilə Olimpiya oyunlarında ölkəni təmsil edərkən əldə etdikləri qələbələr, bayrağımızın qaldırılması və himnimizin səslənməsi gənc nəsil üçün nümunə olmaqla onların vətənpərvərlik hissini gücləndirir. Bu, öz növbəsində, Azərbaycanda yetişməkdə olan gənc nəslin idmana marağı, vətənə və Azərbaycan bayrağına olan məhəbbətinin artmasına, eləcə də yeni dövrün çağırışlarına cavab verən idman növlərinin inkişaf etdirilməsi üçün etibarlı zəmin yaradır. "Hər dəfə beynəlxalq yarışlarda bizim bayrağımız qaldırılanda bütün Azərbaycan xalqı qürur hissi keçirir, sevinir. Bu qələbə sevincini idmançılarımız xalqımıza bəxş edir və bu da öz növbəsində gənc nəsli vətənpərvərlik ruhunda tərbiyə etmək üçün çox önəmli amildir. İdman, ümumiyyətlə, cəmiyyətimizin ayrılmaz hissəsidir və xüsusilə son illər ərzində idmanda gedən müsbət proseslər, əlbəttə ki, hamımızı sevindirir", - deyə Prezident çıxışında bildirib. Azərbaycan Prezidenti onu da bildirib ki, Azərbaycan idmanının ümumi inkişafına gəldikdə hər şey göz qabağındadır: "Həm Olimpiya Oyunlarında, həm də dünya, Avropa çempionatlarında bizim idmançılarımız ölkəmizi ləyaqətlə təmsil edirlər. Əlbəttə ki, uğurlarla bərabər məğlubiyyətlər də olur. Amma idmanda hər şey mümkündür. Əsas odur ki, idmançılarımızda qələbə əzmi çox güclüdür və bir daha ölkəmizin ümumi inkişafını əks etdirir. Bu gün qalib dövlət və qalib xalq kimi yaşayan dövlətimiz, xalqımız, o cümlədən idman uğurları ilə fəxr edir".



## "İDMANÇILARIMIZIN HƏM CƏMİYYƏTDƏ, HƏM DƏ MƏİŞƏTDƏ ÖZLƏRİNİ LAYİQİNCƏ APARMALARI MƏNİ MEDALLARDAN DA ÇOX SEVİNDİRİR"

Prezident İlham Əliyev Avropa çempionatında komanda hesabında çempion olan güləşçilər və onların məşqçiləri ilə görüşündə beynəlxalq yarışlarda idmançılarımıza qarşı ədalətsizliklərdən danışıb. Dövlətimizin başçısı bununla bağlı deyib: "Maraqlıdır, bir qayda olaraq Avropa yarışlarında Azərbaycan idmançılarına qarşı ədalətsizlik dünya çempionatlarına nisbətən daha çox olur. Yəqin ki, Avropada heç də hamı Azərbaycanın Avropa çempionatlarında iştirak etməsinə və təkcə iştirakına deyil, həm də bütün Avropa ölkələrinə qalib gəlməsinə sevinmir".

Dövlət başçımız çıxışında bir vacib məqamı bildirib ki, tanınmış idmançılar daim cəmiyyətin diqqət mərkəzindədirlər. "İdmançılarımızın həm cəmiyyətdə, həm də məişətdə özlərini layiqincə aparmaları məni medallardan da çox sevindirir. Məşhur idmançıların, çempionların adi həyatda məhz bu səviyyəni saxlaya bilmədiklərinə dair tarixdə çoxlu nümunələr var və bir müddət sonra onlara idmançı kimi münasibət həmin səhvlər və ya yanlış hərəkətlər ucbatından pis istiqamətdə dəyişir. Bizdə isə artıq dediyim kimi, ən azı mənim təqribən 30 ildir Milli Olimpiya Komitəsinə rəhbərlik etdiyim dövrdə xatırladığıma görə, belə hallar olmayıb. Bu, çox vacibdir. Medallardan heç də az əhəmiyyətli olmayan odur ki, çempionlar və mükafatçılar, həmçinin cəmiyyətdə və çalışdıqları kollektivlərdə yüksək mənəvi keyfiyyətlər nümayiş etdirsinlər. Bu belə də olmalıdır. Əlbəttə ki, burada çempionlarımızın — Olimpiya çempionlarının, Avropa çempionlarının və dünya çempionlarının nümunəsi var".

Azərbaycan idmanının yeni inkişaf mərhələsində olduğunu aydın şəkildə görürük. Dövlətimiz idmanın bütün növlərinin inkişafına xüsusi diqqət göstərir.

***Zümrüd BAYRAMOVA***







# Bir ömrün işığında: insanlığa xidmətin ali nümunəsi

Aprelin 28-də Nəsimi rayon İcra Hakimiyyəti, Yeni Azərbaycan Partiyası (YAP) Nəsimi rayon təşkilatı və Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasının birgə təşkilatçılığı ilə Azərbaycanın görkəmli alimi, Əməkdar elm xadimi, tibb elmləri doktoru, akademik Zərifə Əziz qızı Əliyevanın anadan olmasının 103-cü ildönümünə həsr olunmuş "Bir ömrün işığında: insanlığa xidmətin ali nümunəsi" mövzusunda tədbir keçirilib. Əvvəlcə Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib. Tədbirdə çıxış edən YAP Sədrinin müavini – Mərkəzi Aparatın rəhbəri, Nəsimi Rayon İcra Hakimiyyətinin başçısı Tahir Budaqov bildirib ki, Zərifə xanım Əliyevanın həyat yoluna nəzər saldıqda yalnız fədakar bir alimin deyil, eyni zamanda, zəngin mənəviyyata malik nümunəvi bir şəxsiyyətin obrazı canlanır: "Onun həyat fəlsəfəsi elmə sədaqət, insanlığa xidmət və milli-mənəvi dəyərlərə bağlılıq prinsiplərini özündə təcəssüm etdirir. Zərifə xanım Əliyevanın fəaliyyəti yalnız tibb sahəsi ilə deyil, bütövlükdə cəmiyyətin inkişafı ilə sıx bağlı olmuşdur. O, insan sağlamlığının, milli və bəşəri dəyərlərin qorunması, intellektual və vətənpərvər gənc nəslin formalaşmasında əvəzsiz xidmətlər göstərmişdir".

Onun sözlərinə görə, Zərifə xanım Əliyeva göz xəstəliklərinin öyrənilməsi və profilaktikası sahəsində apardığı fundamental tədqiqatlarla oftalmologiya elminin inkişafında yeni bir mərhələnin əsasını qoymuşdur: "Onun elmi nailiyyətləri günümüzdə aktuallığını qorumaqla müasir tibbin inkişafına dəyərli töhfələr verməkdə davam edir. Nümunəvi pedaqoq olan Zərifə xanım Əliyevanın yetişdirdiyi kadrlar bu gün Azərbaycanda və ölkə hüdudlarından kənarda uğurla fəaliyyət göstərirlər".

Tahir Budaqov vurğulayıb ki, Zərifə xanım Əliyeva ailə dəyərlərinə xüsusi önəm verən, övladlarının tərbiyəsinə böyük məsuliyyətlə yanaşan qayğıkeş bir ana kimi yadda qalmışdır: "O, müstəqil Azərbaycan dövlətinin qurucusu, bütün mənalı ömrünü Vətəninin tərəqqisinə həsr etmiş dahi şəxsiyyət, Ulu Öndər Heydər Əliyevin ömür-gün yoldaşı, sədaqətli və etibarlı silahdaşı olmuşdur. Məhz belə möhkəm mənəvi dəyərlər üzərində qurulmuş ailədə yetişən cənab İlham Əliyev Ulu Öndərin yoluna yüksək sədaqət nümayiş etdirməklə Azərbaycanı tərəqqi və Zəfər zirvəsinə yüksəltmişdir. O, prinsipial siyasəti ilə qloballaşma prosesinin geniş vüsət aldığı bir dövrdə xalqımızın mənəvi dəyərlərinin qorunması, milli kimliyimizin yaşadılması və ailə institutunun möhkəmləndirilməsi istiqamətində ardıcıl nailiyyətlərə imza ataraq cəmiyyətin sağlam təməllər üzərində inkişafını təmin etmişdir".

Natiq bildirib ki, bu gün dövlət başçısının siyasi iradəsi ilə ölkəmizdə bütün istiqamətlərdə, o cümlədən tibb sahəsində ardıcıl islahatlar həyata keçirilir, səhiyyə sisteminin modernləşdirilməsi, elm və təhsilin davamlı inkişafı üçün mühüm addımlar atılır: "Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın təşəbbüsü ilə reallaşdırılan humanitar layihələr də bu prosesə müstəsna töhfə olmaqla bərabər, Zərifə xanımın zəngin elmi irsinin və ideyalarının yaşadılmasına xidmət göstərir. Xüsusi qeyd etmək istərdim ki, Nəsimi rayonu ərazisində fəaliyyət göstərən Azərbaycan Tibb Universiteti də Zərifə xanım Əliyevanın əsasını qoyduğu ənənələri davam etdirərək yüksək ixtisaslı kadrların - Vətənə ləyaqətlə xidmət edən gənc həkimlərin və tədqiqatçıların formalaşmasında önəmli rol oynayır".

"Şərəfli bir ömür yaşamış Zərifə xanım Əliyevanın işıqlı obrazı həmişə bizimlə olacaqdır. Onun əziz xatirəsi qədirbilən xalqımızın qəlbində əbədi yaşayacaq və zəngin mənəvi irsi nəsillərdən-nəsillərə ötürüləcəkdir", - deyə Tahir Budaqov əlavə edib.

Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasının rektoru, Xalq artisti, professor Fərhad Bədəlbəyli çıxışında bildirib ki, fədakarlığına, xeyirxahlığına və yüksək intellektinə görə insanların dərin hörmət və məhəbbətini qazanmış Zərifə xanım Əliyeva böyük ziyalı, işıqlı, nurlu şəxsiyyət idi: "Onun mənəvi dünyası olduqca zəngin idi, oftalmologiya elminin inkişafındakı xidmətləri isə əvəzsizdir".

F.Bədəlbəyli Zərifə xanım Əliyevanın sənətə və musiqiyə bağlı olduğunu qeyd edib. Onun sözlərinə görə, sadə və təvazökar insan olan Zərifə Əliyeva hər zaman sənətkarlara qayğı ilə yanaşıb. "Onun ailəsində, evində həmişə musiqi səsi eşidilərdi. Zərifə Əliyevanın bacısı Gülarə Əliyeva məşhur "Dan ulduzu" ansamblını yaratmışdı. Zərifə xanımın özü də pianinoda çox gözəl ifa edirdi. O, Ulu Öndər Heydər Əliyevlə birlikdə tez-tez mədəni tədbirlərə, konsertlərə gələrdi. Mən özümü xoşbəxt hesab edirəm ki, Zərifə xanımı şəxsən tanımışam. Biz onun sənətkarlara diqqətini heç vaxt unutmuruq. Gənclərimiz də bilməlidir ki, tariximizdə belə dəyərli qadınlar olub", - deyə rektor vurğulayıb.

Natiq söyləyib ki, insanların böyük sevgisini qazanmaq, özündən sonra nurlu xatirələr qoymaq çox az adamın taleyinə yazılır: "Akademik Zərifə Əliyevanın ömür kitabında Azərbaycan naminə misilsiz xidmətləri olan görkəmli dövlət xadimlərinin taleyi yaşayır. Zərifə xanım həyatı daim mübarizələrdə keçən Ümummilli Lider Heydər Əliyevlə çiyin-çiyinə addımlayır, çətin günlərdə ona arxa-dayaq olurdu. Bu gün Ulu Öndər Heydər Əliyevin və Zərifə xanımın xalqa məhəbbəti və xidməti Azərbaycan Prezidenti İlham Əliyevin, Birinci vitse-prezident, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın fəaliyyətində davam edir".

Çıxış edən Bakı Musiqi Akademiyasının professoru, Xalq artisti, general-mayor Yusif Axundzadə bildirib ki, Zərifə xanım Əliyeva bənzərsiz, işıqlı bir ömür yaşayıb: "Bu işıqdan hamıya - ailəsinə, ətrafında olan hər kəsə, gözünün nurunu itirmiş insanlara pay çatırdı. Onun ömür yolu parlaq səhifələrlə zəngindir".

Y.Axundzadə əlavə edib ki, akademik Zərifə Əliyeva zəngin irs qoyub, öz tədqiqatları ilə Azərbaycan tibb elmini əhəmiyyətli dərəcədə irəliyə aparıb: "Zərifə xanımı xatırlayanda göz önündə mənəvi kamilliyin uca zirvəsinə yüksəlmiş görkəmli elm fədaisi canlanır. Onun simasında nəcib Azərbaycan qadını, vəfalı ömür-gün yoldaşı, fədakar ana obrazını görürük".

Bakı Musiqi Akademiyasının dosenti, sənətşünaslıq üzrə fəlsəfə doktoru, Zərifə Əliyevanın bacısı qızı Ayəndə Adilova qeyd edib ki, Zərifə xanım Əliyeva yüksək insani keyfiyyətləri ilə Azərbaycan qadınının ideal obrazını yaradıb: "Zərifə xanım musiqisevər bir insan idi. Onun bacısı, mənim anam Gülarə Əliyeva "Dan ulduzu" instrumental ansamblını yaradandan sonra birlikdə ailə tədbirlərində tez-tez pianinoda ifa edirdilər. Musiqi onların evində daim səslənirdi".

"Oftalmologiya elminə verdiyi töhfələrlə yanaşı, insanpərvərliyi ilə də seçilən Zərifə xanımın həyat yolu bizim üçün parlaq nümunədir", - deyə A. Adilova əlavə edib. Tədbirin rəsmi hissəsi Yeni Azərbaycan Partiyasının Himninin səsləndirilməsi ilə başa çatıb. Sonra konsert proqramı təqdim olunub.

# Tramp "İran bataqlığından" çıxa bilmir...

***"ABŞ-ın İranla bağlı artıq fiaskoya uğramış müharibə strategiyası həm də Ağ Evin dünya nəhəngi kimi supergüc obrazını da alt-üst edib. Bölgədə İranla təkcə hərbi deyil, həm də diplomatik və siyasi rinqdə də bacarıqsızlıq göstərən ABŞ rəhbərliyi vəziyyətdən çıxmaq üçün çapalayır, lakin onun "İran bataqlığından" nüfuzunu qoruyaraq xilas olması artıq mümkünsüz şəkil alıb."***

Bu fikirləri SİA-ya açıqlamasında jurnalist-ekspert Mətləb Salahov bildirib. O qeyd edib ki, D.Tramp əvvəlcə İrana qarşı quru əməliyyatına başlayacağını elan etdi, indi də Hörmüz boğazını blokadaya alacağını elan edir. Bunların heç biri real addımlar deyil. "Çünki İrana qarşı quru əməliyyatları bölgədəki incəliklərdən məlumatsız ABŞ ordusu üçün böyük itki demək olacaq. Hörmüz boğazının blokadası isə dünya iqtisadiyyatının iflici olacaq ki, bu da hazırkı ABŞ rəhbərliyinə qarşı olan hücumları kəskinləşdirəcək.

Xüsusilə dünya ticarət yoluna blokada tətbiq etmək ABŞ üçün daha ağır nəticələr yaradacaq. Unutmayaq ki, üzdə olmasalar da, hazırda ABŞ-a qarşı İranın yanında Rusiya və Çin kimi nəhənglər də yer alır. Hazırkı İran müharibəsi ABŞ üçün Əfqanıstan və Vyetnam fəlakətlərindən daha betər vəziyyətdir".

**Afət Tahirqızı**



*Mətləb Salahov: "ABŞ-a qarşı İranın yanında Rusiya və Çin kimi nəhənglər də yer alır"*

# Azərbaycan - Ukrayna əməkdaşlığının çox güclü siyasi təməli vardır

**Ukrayna Prezidenti Volodimir Zelenskinin Azərbaycana səfəri Bakı-Kiyev münasibətlərinin çoxşaxəli və dərin mahiyyətini bir daha nümayiş etdirdi.Bu səfər təkcə diplomatik protokol çərçivəsində baş tutan görüşlərlə məhdudlaşmır, həm də iki ölkə arasında uzun illərə söykənən strateji tərəfdaşlığın yeni mərhələsini formalaşdıran mühüm siyasi hadisə kimi qiymətləndirilir. Mövcud reallıqlar fonunda bu səfər həm regional, həm də beynəlxalq kontekstdə diqqətlə təhlil olunur və onun nəticələri yalnız bugünkü deyil, gələcək əməkdaşlıq perspektivlərini də müəyyənləşdirir.**

Ölkələrimiz və xalqlarımız arasında mövcud olan münasibətlərin mahiyyəti həmişə dostluq və əməkdaşlıq xüsusiyyəti daşıyıb. Hər iki ölkə daim bir-birinin ərazi bütövlüyünü dəstəkləyib. Bu istiqamətdə addımlar atılıb, beynəlxalq təşkilatlarda eyni mövqedən çıxış ediblər. Səfər çərçivəsində keçirilən görüşlərdə qarşılıqlı hörmət və anlayış ön planda oldu. Zelenski tərəfdaş ölkələrlə iqtisadi, humanitar və təhlükəsizlik sahələrində əməkdaşlığın genişləndirilməsini müzakirə etdi. Bu, regionda sabitliyin qorunması və inkişafın davamlı olması üçün mühüm zəmin yaradır. Səfər zamanı əldə olunan razılaşmalar gələcək əməkdaşlıq üçün yeni imkanlar açdı. İmzalanan sənədlər və razılaşmalar müxtəlif sahələrdə layihələrin həyata keçirilməsinə təkan verəcək. Bu isə həm iqtisadi inkişaf, həm də sosial rifah baxımından əhəmiyyətli nəticələr vəd edir.

Ümumiyyətlə, Azərbaycan ilə Ukrayna arasında münasibətlər təsadüfi xarakter daşımır və bu əlaqələr konkret hüquqi-siyasi baza üzərində qurulub. Hələ 2008-ci ildə dövlət başçıları səviyyəsində imzalanmış strateji tərəfdaşlıq haqqında birgə bəyannamə iki ölkə arasında münasibətlərin istiqamətini müəyyən edən əsas sənəd kimi çıxış edir. Prezident İlham Əliyevin həyata keçirdiyi ardıcıl xarici siyasət kursu nəticəsində bu münasibətlər illər ərzində inkişaf edərək daha da möhkəmlənib. Zelenskinin səfəri də məhz bu davamlı xəttin növbəti mərhələsi kimi çıxış edir və göstərir ki, Bakı ilə Kiyev arasında əməkdaşlıq qısamüddətli siyasi proseslərdən asılı deyil, uzunmüddətli strateji maraqlara əsaslanır.

Ümumilikdə, Prezident İlham Əliyevin bəyanatı göstərir ki, Azərbaycan–Ukrayna münasibətləri yalnız dostluq səviyyəsində deyil, dövlət maraqlarına xidmət edən çoxşaxəli strateji tərəfdaşlıq mərhələsindədir.



*Həsən Bayramov, Qərbi Azərbaycan İcmasının Binəqədi rayon nümayəndəsi, pedaqogika üzrə elmlər doktoru*

# Ailənin cəmiyyətdə rolu milli dəyərlərə əsaslanır

***Hər bir cəmiyyət ailələrin birliyindən yaranır. Bu birliyin sağlam və tərəqqi etməsinin kökündə isə hər bir ailənin xalqın milli irsini, dəyərlərini necə mənimsəməsi dayanır. Təbii ki, ailənin formalaşmasında və inkişafında dövlətin dəstəyi əhəmiyyətli rol oynayır. Yerli və xarici ekspertlərin, mütəxəssislərin də gəldiyi qənaətə görə, Azərbaycan cəmiyyətində ailənin dövlətin tərəqqisində oynadığı rol böyükdür.***

Sosioloqlar insanın şəxsiyyət kimi yetişməsində, sosiallaşmasında xalqın milli-mənəvi keyfiyyətlərinin gələcək nəsillərə ötürülməsində ailəni alt qurum hesab edirlər. Türk dünyasında isə sağlam əxlaqa malik əksəriyyət arasında evlənmə xoşbəxtlik qaynağı kimi qəbul olunur. Türk təfəkküründəki fitri və təbii əsaslara malik ailə nizamı ərlə arvad arasındakı rabitənin bir çox incə nöqtələrini önə çəkmişdir. Eləcə də ailə həyatının davamlı qanunlarının əsası qoyulmuşdur. Türk təfəkkürünün daim diqqət mərkəzində olan əsas məsələlərindən biri bu ocağı isitmək və möhkəmləndirməkdir. Belə ki, ailə rabitələrini zəiflədə bilən hər bir amillə ciddi mübarizə aparılmışdır. Ər-arvadlıq vəzifələrinin yerinə yetirilməsi və ailədə əxlaqi dəyərlərə diqqət bu cəmiyyətdə əsas şərtlərdən sayılmışdır. Bu yolla ailə quran tərəflər Allaha yaxınlaşır, onların bəndəlik məqamı yüksəlir. Bu səbəbdən türk dünyagörüşündə ailə müqəddəslik dairəsinə daxildir və ilahi bir məfhum daşıyır. Belə bir yanaşma ailə təməlini soyuqluq və süstlükdən qoruyan, onu daha da sarsılmaz edən ciddi amildir. Ailə-nikah və ya qan qohumluğuna əsaslanan, məişət ümumiliyi və qarşılıqlı mənəvi məsuliyyətlə bağlı olan kiçik sosial birlikdir. O, hər bir cəmiyyətin sosial strukturunun mühüm komponenti olub, çoxlu sosial funksiyalar yerinə yetirməklə həmin cəmiyyətin inkişafında mühüm rol oynayır. Nikah ailənin hüquqi əsasıdır. O, qadınla kişi arasında rəsmi qaydada bağlanılan müqavilədir. İnsan ailədə dünyaya gəlir, onun vasitəsilə uşaqların ilkin sosiallaşması və tərbiyə edilməsi başlayır. Həmçinin, böyüyə hörmət və qayğı göstərmək vəzifəsi ailədə reallaşır. Ailənin əsası cəmiyyət tərəfindən bu və ya digər formada müəyyən edilmiş kişi ilə qadın



arasında nikah ittifaqıdır. Nikah kişi ilə qadın arasında, valideynlərlə uşaqlar arasında münasibətləri qəti müəyyənləşdirir, müəyyən normalara salır, bununla da ona sosial təsisat xarakteri verir.

### Ana və ata uşaqlarının dostu olmalıdır

Valideynlər uşaqlara nə qədər sevgi ilə yanaşsalar, uşaqlar öz fikirlərini onlara daha açıq şəkildə deyər, valideynlərini özlərinə dost və sirdaş bilərlər. Ana və ata uşaqlarının dostu olmalıdır. Uşaqlar məktəbdə, həyətdə üzləşdikləri arzuolunmaz problemləri rəfiqəsinə və ya dostuna deyil məhz valideynləri ilə müzakirə etməlidir. Bu da valideynlə uşaqlar arasında dərin dostluq əlaqələri yaradar, inam və etimadı möhkəmləndirər. Uşağı təhdid etmək, ona yersiz halda qışqırmaq yolverilməzdir. Belə hal uşaq da ümidsizlik yaradar, ruhdan düşər ki, bu da ailədə başqa problemlərə, hətta faciəyə gətirib çıxara bilir. Ailə özündə ictimai əlaqələrin bütün sistemlərini – nikah və qohumluq, hüquqi və siyasi, iqtisadi, etnik, psixoloji və emosional – birləşdirir. Məhz bu amilin sayəsində ailə sosial birliyin ilkin elementi olduğu üçün şəxsiyyət-cəmiyyət münasibətlərinin vasitəçisi qismində çıxış edir. Ailə yeni doğulmuş körpənin sosial normalar və əlaqələr haqqında təsəvvürünün formalaşmasını da həyata keçirir. Ailə, həmçinin, sosial irs qanununun da yaşamasına təsir göstərən ən güclü institutdur. Qurulacaq ailə milli-mənəvi, dini-əxlaqi faktorlara söykənməlidir. Bəli, bir insan ailə qurarkən bunun necə məsuliyyətli bir iş olduğunu dərk etməli və necə bir insanla ailə həyatı quracağını müəyyənləşdirməlidir. Kiçik dövlət sayılan ailə insanlar arasında birinci ictimai formadır. Mənəvi emosional hisslər əsasında birləşmiş, insanların ümumi maraqlarını ifadə edən bu kiçik institut eyni zamanda güclü dövlətin, millətin təməlini təşkil edir. Ailənin gücü və mahiyyəti onun sosial birlik, kiçik sosial qrup kimi xarakterizə edilməsi ilə bağlıdır. İnsanın real şəxsiyyəti ən bariz şəkildə ailədə formalaşır. Uşağa davranış qaydalarını mənimsədən, sosiallaşmasını təmin edən ilk məktəb də ailədir. Çünki ailənin quruluşu, təməl prinsipləri və fəaliyyəti cəmiyyətin fəaliyyəti ilə bir bütünlük təşkil edir.

Uşağı təhdid etmək, ona yersiz halda qışqırmaq kimi neqativ hallar yolverilməzdir. Bu, uşaqların sinirinə, əlbəttə, öz mənfi təsirini göstərir. Uşaqlar sevildiklərini biləndə, hiss edəndə ki valideynləri onları necə böyük bir məhəbbətlə sevir, onda bunu gələcəkdə öz ailəsində də tətbiq edir. Əks halda isə bu, ailədə başqa problemlərə, hətta faciəyə gətirib çıxara bilir. Bu kimi halları nəzərə almaqla gələcəyinizi, başlıcası isə cəmiyyətimizin inkişafına təkan ola biləcək sağlam, nümunəvi ailə institutu yaratmaq olar.

**İ. ƏLİYEV**



**Elçin Bayramlı**

# Robotlar insanları əvəz edir? Bizi nə gözləyir?

***Texnologiyanın sürətli inkişafı robototexnika sahəsində yeni eranın başlanğıcını elan edib. 3-cü nəsil robotlar artıq yalnız, yerimək, müxtəlif çətin hərəkətləri etmək, danışmaq və ağır işləri görməkdən çıxıb, insanın hiss və emosiyalarını da təkrarlayaraq "dəmir insan" formasına keçir.***

Robotlar artıq müstəqil düşünə bilən, özü qərar verən və analiz edən sistemlərə çevrilirlər. Hətta qeyri-maddi sahələrə- emosiya və hisslərə də daxil olublar. Hansı hadisəyə necə reaksiya verdiyimizi, hansı mimikanı işlətdiyimizi, nə vaxt ağlayıb, nə vaxt güləcəyimizi öyrənərək insanı tamamilə təkrarlamağa çalışırlar.

Robotların dəmir bədəninə uyğun kostyum kimi tikilə bilən, toxunma hissinə malik yeni materiallara keçid başlayır. Bu, adi təzyiq sensorları deyil, qatlanma radiusu 0.2 mm-dən az olan elektron dəridir. Beləliklə, robotlar çox həssas toxunuşu hiss edə, səthlərin fərqini ayırd edə bilər. Üstəlik də, elastik bədən örtüyü və mimikaların düzgün idarə olunması onları insandan seçməyi çətinləşdirir. ABŞ, Yaponiya, Rusiya, Çin kimi ölkələrdə yaradılan bəzi yeni nəsil robotlar ilk 1 dəqiqədə insandan seçmək olmur. Robotların beyninin internetə, süni intellekt sisteminə bağlanması isə onun dünyadakı bütün məlumatları bilməsinə və lazımi vəziyyətdə istifadə edə bilməsinə imkan verir. Artıq dünya ölkələrində müəllimsiz məktəblər, həkimsiz xəstəxanalar, fəhləsiz zavodlar erası başlayır.

Yaxın illərdə bir çox peşələrin süni intellekt və robotlar tərəfindən insanların əlindən alınacağına heç bir şübhə yoxdur. Son 50 ildə robotların tətbiqi sayəsinə yüz milyonlarla insan işini itirib. Qlobal şirkətlər bundan öz xərclərini azaltmaq, gəlirlərini çoxaltmaq üçün istifadə edirlər və işsiz qalan insanların taleyi onları maraqlandırmır. Daha bir təhlükə isə robotların və süni intellekt sistemlərinin hərbi məqsədlərlə istifadəsidir. Bu texnologiyaların müharibələrdə tətbiqi qırğınları artıra və texnoloji zəif ölkələri məhv etməyə imkan verə bilər. Yaxın 10-15 ildə mövcud peşə və fəaliyyətlərin 90%-i süni intellektin və robotların öhdəsinə keçəcək. Onlar insanları əvəz edərək daha effektiv və məhsuldar işləyəcəklər. Bu halda milyardlarla insana iş tapılmayacaq və onlar lazımsız əşyaya çevriləcək.

İnsandan asılılıq azaldıqca robotların bütün sahələrdə üstünlüyü ələ alacağı bəşəriyyət üçün ciddi təhlükə riskidir. Bu sistemlər yalnız düzgün insanların əlində olarsa, bəşəriyyətin həyatına, istirahətinə və dünyanın gözəlləşməsinə xidmət edə bilər. İnsan texniki və fiziki baxımdan nə qədər əvəz olunsa da, o, bioloji və ruhi varlıq olaraq qalır. Robotlar bizi əmək, bilik və düşüncə müstəvisində təkrar edə bilərlər, lakin bu, yalnız texniki subyekt olaraq qalacaq- çünki onların ruhu yoxdur, ruh və can tamamilə fərqli bir varlıqdır; onu yalnız Yaradan verə bilər. Bu, maddi-texnoloji üsullarla əldə edilə biləcək bir şey deyil.

Gələcəkdə hər şey bəşəriyyətin necə bir cəmiyyət və dövlət sistemi quracağından asılı olacaq. Əgər hakimiyyət sağlam qüvvələrin əlində olsa, süni intellekt bəşəriyyətin faydasına işləyəcək, insanı fiziki yükdən azad edərək onun istirahətinə şərait yaradacaq.

Robototexnikanın və süni intellektin inkişafı sağlam şəkildə həyata tətbiq olunsa insanların işi və həyatı son dərəcə asanlaşar. İnsanlar əsasən, mədəniyyət, incəsənət, idman, turizm, elmi araşdırmalar və sair bu kimi sahələrdə çalışar, ağır işləri isə robotlar həyata keçirər. Beləliklə, dünyada məhsul bolluğu yaranar, yoxsulluq, aclıq aradan qalxar, xəstəliklər minimuma enər.

Süni intellekt vasitəsilə bir çox işləri səhvsiz, dəqiq və sürətli şəkildə həyata keçirmək olar ki, bu da enerji və vaxt sərfini dəfələrlə azaldar. İnsanların öz həyatlarına, elmi, mədəni inkişaflarına daha çox vaxtı qalar. Texnologiyanın sürətli inkişafı yaxın bir neçə onillik ərzində insanların yekun qərara gəlməsini tələb edir- ya sağlam və düzgün, ədalətli və elmli bir cəmiyyət qurub xoşbəxt yaşamaq, ya da robotlara uduzaraq tarix səhnəsindən silinib getmək.

*Yeni Azərbaycan Partiyası (YAP) Mərkəzi Aparatının və YAP Sumqayıt şəhər təşkilatının birgə təşkilatçılığı ilə Ulu Öndər Heydər Əliyevin anadan olmasının 103-cü ildönümünə həsr olunan “Ümummilli Liderin siyasi irsi” mövzusunda tədbir keçirilib.*



# “Ümummilli Liderin siyasi irsi”





Əvvəlcə Ümummilli Lider Heydər Əliyevin abidəsi önünə gül dəstələri düzülüb.

Sonra Sumqayıt şəhər Heydər Əliyev Mərkəzi ziyarət edilib.

Mərkəzdə keçirilən tədbirdə Ulu Öndər Heydər Əliyevin, Azərbaycanın ərazi bütövlüyü və suverenliyi uğrunda canlarını qurban vermiş şəhidlərin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Tədbiri giriş sözü ilə açan YAP İdarə Heyətinin üzvü, partiyanın Sumqayıt şəhər təşkilatının sədri Ramiz Hüseynov Ulu Öndər Heydər Əliyevin Azərbaycan dövləti və xalqı qarşısında tarixi xidmətlərindən bəhs edib. O qeyd edib ki, Azərbaycanın inkişaf strategiyasının müəllifi Ümummilli Lider Heydər Əliyevdir. Ümummilli Liderin ölkəmizin tərəqqisi naminə həyata keçirdiyi islahatlar və irimiqyaslı layihələr Prezident İlham Əliyevin rəhbərliyi ilə müasir dövrün çağırışlarına uyğun olaraq uğurla davam və inkişaf etdirilir.

Çıxış edən YAP Veteranlar Şurasının üzvü Dilarə Seyidzadə Azərbaycanın güclü və qüdrətli dövlətə çevrilməsinin Ümummilli Lider Heydər Əliyevin adı ilə bağlı olduğunu deyib: “Azərbaycan xalqı çox xoşbəxtdir ki, Heydər Əliyev kimi dahi Lideri olub. Biz müstəqil ölkənin vətəndaşı olaraq çox çətin yollardan keçmişik. Bu müstəqilliyin qorunması və möhkəmlənməsi Ümummilli Liderin xidmətləri sayəsində mümkün olub. Heydər Əliyev ölkəmizin müstəqilliyini qorumaqla yanaşı, onun inkişafı naminə çox mühüm işlər görüb. Ulu Öndər Heydər Əliyev müstəqil Azərbaycanı həm yaradan, həm möhkəmləndirən, dünyada tanıdan, həm də gələcəyə doğru uğurla aparan şəxsiyyət idi. O, özündə bütün keyfiyyətləri birləşdirmişdi”.

Dilarə Seyidzadə qeyd edib ki, Azərbaycan dövlət müstəqilliyini bərpa etdikdən sonra xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdan Ulu Öndər Heydər Əliyev çətin anlarda xalqına dayaq oldu. O, bütün ömrünü Azərbaycana, Azərbaycan xalqına həsr edib. Heydər Əliyev bildirirdi ki, müstəqilliyin əldə olunması nə qədər çətindirsə, onun qorunması, daimi, əbədi olması bundan da çətindir. Ulu Öndərin torpaq, Vətən sevgisi böyük idi. “Mən “Dəmir yumruq” əməliyyatı ilə torpaqlarımızın işğaldan azad olunmasını xüsusi vurğulamaq istəyirəm. O yumruqda xalqımızın birliyini görürəm. Bu, milli birlikdir, Heydər Əliyevin arzusunun real təsdiqidir. Bu, Heydər Əliyev siyasətinin bəhrəsidir. O, xalqını və dövlətini dərin məhəbbətlə sevirdi və bu sevginin təcəssümü kimi Azərbaycana dövlətinə və xalqına sədaqətlə xidmət edən Lideri - cənab İlham Əliyevi bəxş etdi. Bu gün işğaldan azad edilmiş ərazilərimizdə aparılan bərpa və quruculuq işlərinin miqyasına diqqət yetirin. Keçmiş məcburi köçkünlərin doğma yurd-yuvalarına qayıdışı, burada yeni həyata başlamaları hər birimizi qürurlandırır. Prezident İlham Əliyevin rəhbərliyi ilə ərazi bütövlüyümüzün təmin olunması, işğala son qoyularaq azad edilmiş torpaqlarımızın cənnətə çevrilməsi naminə görülən işlər məhz Heydər Əliyev siyasətinin təntənəsidir”, - deyə YAP Veteranlar Şurasının üzvü vurğulayıb.

Tədbirdə, həmçinin YAP Mərkəzi Aparatının Gender siyasəti və gənclərlə iş şöbəsinin müdiri Zəkiyyə Musayeva, Sumqayıt Şəhər İcra Hakimiyyəti başçısının müavini Ülviyyə Müzəffərova, Sumqayıt şəhər İcra Hakimiyyətinin sektor müdiri Gündüz Əliyev çıxış ediblər. Çıxışlarda bildirilib ki, Ulu Öndər Heydər Əliyev müasir müstəqil Azərbaycan dövlətinin memarı kimi tariximizə əbədi həkk etdirib. Ümummilli Liderin qurucusu olduğu müstəqil Azərbaycanın Prezident İlham Əliyevin rəhbərliyi ilə davamlı inkişaf yolunda irəlilədiyi və yeni zirvələr fəth etdiyi diqqətə çatdırılıb. Vurğulanıb ki, uzun illər həm iqtisadi, siyasi, hərbi, həm də diplomatik sahədə həyata keçirilən məqsədyönlü siyasət nəticəsində Azərbaycan ərazi bütövlüyünü və suverenliyini bərpa edib. Qazanılan bütün nailiyyətlərin təməlində isə Ulu Öndər Heydər Əliyevin zəngin irsi və ideyaları dayanır.

Sonra partiya sıralarına yeni qəbul olunan gənclərə üzvlük vəsiqələri təqdim olunub. Tədbir Yeni Azərbaycan Partiyasının Himninin səsləndirilməsi ilə başa çatıb.



# Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 103-cü ildönümü ilə əlaqədar ağacəkmə aksiyası keçirilib





***Aprelin 25-də “Şəhərsalma və Memarlıq İli” çərçivəsində Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 103-cü ildönümü ilə əlaqədar Yeni Azərbaycan Partiyası və Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin birgə təşkilatçılığı ilə ağacəkmə aksiyası keçirilib.***

Aksiya çərçivəsində Abşeron rayonu, “Ceyranbatan” su anbarı ərazisində 1200 ədəd Eldar şamı ağacı əkilib. Eyni zamanda, ağacların əkildiyi məkanda təmizlik işləri aparılıb, ağaclara aqrotexniki qulluq göstərilib.



Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

***Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "elmi-kütləvi, mədəni-maarif, təhsil proqramlarının hazırlanması " istiqaməti çərçivəsində hazırlanıb.***

Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "elmi-kütləvi, mədəni-maarif, təhsil proqramlarının hazırlanması" istiqaməti çərçivəsində hazırlanıb.

# Distant təhsil effektiv alternativdir



***Ümumdünya Şəhərsalma Forumu dünyada şəhərsalma sahəsində ən böyük beynəlxalq tədbirlərdən biridir. Birləşmiş Millətlər Təşkilatının İnsan Məskənləri Proqramı tərəfindən təşkil olunan bu aparıcı beynəlxalq forum sürətli urbanizasiya, yaşayış məntəqələrinin inkişafı və dayanıqlı şəhərsalma məsələlərinin müzakirəsi üçün əsas qlobal platforma hesab olunur.***

İlk sessiyası 2002-ci ildə Nayrobidə (Keniya) keçirilən bu forum 2 ildən bir təşkil olunur. 13-cü sessiyası ölkəmizdə keçiriləcək forum çərçivəsində Bakıya 20 mindən çox xarici mütəxəssis və qonağın gələcəyi proqnozlaşdırılır. Qeyd edək ki, Bakı ən çox qonağı COP29 Konfransı zamanı qarşılamışdı, 70 mindən çox xarici qonaq konfrans üçün qeydiyyatdan keçmişdi.

Doğrudur, bu cür beynəlxalq tədbirlərin Bakıda keçirilməsi ölkəmizin beynəlxalq nüfuzunu artırır, dünyanın müxtəlif ölkələrindən minlərlə qonaq və nümayəndə iştirak edir. Lakin paralel olaraq Bakı kimi yetəri qədər sıxlığı olan bir şəhər üçün əlavə problemlər də yaratması qaçılmazdır. Pik saatlarda yollarda sıxlığın müşahidə edilməsi, avtobusların marşrut xətlərinin dəyişdirilməsi, qonaqların iştirak edəcək sessiyaların təşkili saatlarında görüləcək tədbirlər zamanı hərəkət məhdudiyyəti paytaxt sakinlərini narahat edən məsələlərdəndir. Çünki belə böyük tədbirlər zamanı harada keçirilməsindən asılı olmayaraq şəhərdə tıxaclar və sıxlıq artır, dolayısı ilə hərəkət məhdudiyyəti də yaranır.

Məktəb və universitetlərin distant rejimə keçməsi də bu sıxlığın qismən də olsa aradan qaldırılmasına xidmət edir. Bizim artıq həm pandemiya dövründən, həm də şəhərimizdə keçirilən beynəlxalq konfransların təşkili zamanından distant təhsil təcrübəmiz formalaşıb. Sözügedən forumun keçiriləcəyi günlərdə məktəb və universitetlərin distant təhsilə keçməsi nəqliyyat yükünü azaldacaq, şəhər daxilində hərəkəti rahatlaşdıracaq ki, bu da iş və marşrut rejimi dəyişəcək ictimai nəqliyyat vasitələrində yaranması ehtimal olacaq sıxlığın aradan qalxmasına, işə gedib-gələn paytaxt sakinlərinin daha rahat hərəkət etməsinə şərait yaradacaq. Məktəbə gedən uşaqların dərsə bir çox halda valideynlərin şəxsi maşını ilə aparılması səhər və günorta saatlarında yollarda daha çox sıxlıq yaranmasına səbəb olduğu üçün distant təhsil zamanı bu problem də aradan qalxmış olacaq.

Qeyd edək ki, distant təhsil zamanı dərslər olduğu kimi keçirilir, sadəcə onlayn formada davam edir. Müasir texnologiyalardan (Zoom, Teams və s.) istifadə etməklə təhsilin fasiləsiz olmasına imkan yaradılır. Bu, həmin günlərdə Bakıda yaranacaq sıxlıq səbəbindən həm tələbə və şagirdlər, həm də müəllimlər üçün daha əlverişli və rahatdır. Elm və təhsil naziri Emin Əmrullayevin imzaladığı əmrə görə forumun olacağı 17-22 may tarixlərində Bakı şəhərində fəaliyyət göstərən təhsil müəssisələrində nəzərdə tutulmuş 1-5 may tarixlərindəki tətil əvəzinə mayın 18-dən 22-dək tətil müəyyən ediləcək.

Həmçinin, forum iştirakçılarının marşrutlarına daxil olmayan Pirallahı, Qaradağ, Suraxanı, Sabunçu və Nizami rayonları istisna olmaqla, Bakı şəhərinin digər rayonlarında fəaliyyət göstərən ümumi təhsil müəssisələrinin V-XI siniflərində, ali və peşə təhsili ocaqlarında dərslər mayın 18-dən 22-dək distant formada keçiriləcək.

Bizim ölkəmiz pandemiya dövrünədək distant təhsillə bağlı heç bir təcrübəyə malik deyildi. Buna görə də həmin ərəfədə onlayne platformanın yaradılması, distant təhsil rejiminin təşkili edilməsi, cədvəllərin tərtibatı, dərslərin davamiyyəti və effektivliyi məsələsi müəyyən problemlər yaratmışdı. Həm müəllimlər, həm məktəb rəhbərliyi, həm də şagird və tələbələr belə bir təcrübəyə sahib olmadıqları üçün müəyyən çətinliklər qaçılmaz oldu. Lakin sonrakı təcrübələr zamanı yavaş-yavaş adaptasiya prosesi getdi, sistem relsə oturduldu.

Təhsil prosesinin davamlılığına xidmət edən bu cür tədbirlər sonrakı illərdə - 2023-cü ildəki Qoşulmama Hərəkatının Zirvə Görüşü, hər il keçirilən Bakı Enerji Həftəsi və Formula yarışları, 2024-cü ildə keçirilən COP29 Konfransı, TEKNOFEST Azərbaycan və s. kimi beynəlxalq tədbirlərin təşkili zamanı artıq distant təhsil təcrübəmiz var idi və müəyyən müddətə online təhsilə keçmək həm çətin olmadı, həm də dərsin səmərəliliyi itmədi.

Bu cür beynəlxalq tədbirlər zamanı Bakıya gələcək minlərlə qonaq səbəbindən qaçılmaz sıxlığın gözlənildiyi günlərdə təhsilin distant rejimə keçirilməsi həm də ekoloji və sosial fayda verir. Şagird və tələbələrin dərsi məsafədən keçməsi şəhərdə daha az nəqliyyat, dolayısı ilə daha az hava çirklənməsi deməkdir. Nəticə etibarı ilə şəhərdə səs-küy, sıxlıq azalır. Həmçinin, xarici qonaqların çox olduğu dövrdə təhlükəsizlik tədbirləri gücləndirildiyi üçün şəhərdə izdiham olması da işə mane ola bilər.

Ümumiyyətlə, Bakı son illərdə beynəlxalq tədbirlərin əsas mərkəzlərindən birinə çevrilib. Bu tədbirlər ölkəmizə turist axınını artırır, iqtisadi inkişaf yaradır, beynəlxalq nüfuzumuzu gücləndirir. Bu cür beynəlxalq tədbirlər çərçivəsində məsafədən təhsilə keçmək qərarı həm şəhərin rahat idarə olunmasına, həm də təhsilin fasiləsiz davam etməsinə xidmət edir. Məsafədən təhsillə bağlı artıq mövcud təcrübəmiz də olduğu üçün distant təhsil effektiv alternativdir.

***Lalə Mehralı***

# Moskva İrəvana PUA texnologiyası verir?



***"Ermənistan pilotsuz uçuş aparatları (PUA) üçün tənzimləyici çərçivə yaratmalıdır. İşə indi başlamaq lazımdır, əks halda əbədi olaraq geridə qalma və kənar şəxs olma riski var". Bu fikri Moskva-İrəvan telekonfransında Pilotsuz Aviasiya və Robototexnika Təlim Mərkəzinin təsisçisi və Rusiya Mühəndislik Akademiyasının akademiki Maksim Kondratyev bildirib.***

Onun sözlərinə görə, müasir müharibənin paradiqması kökündən dəyişib və pilotsuz uçuş aparatları, dronlar və robotlar dövrünə qədəm qoyub. Bu o deməkdir ki, hibrid müharibə yalnız uçan dronlarla deyil, həm də quruda, dənizdə və sualtıda pilotsuz uçuş aparatları ilə hücumları əhatə edir. Yeni texnologiyaların ənənəvi ağır silahları lazımsız edib-etməməsi və Ermənistan kimi kiçik ölkələrin imkanlarını genişləndiribgenişləndirməməsi ilə bağlı şərh verən ekspert qeyd edib ki, ucuz PUA-lar əhəmiyyətli investisiya tələb edən bahalı inkişafların nəticəsidir.

Lakin, PUA-lar raket və nüvə silahlarını əvəz etməyəcək. PUA-ların geniş istifadəsinə nümunə olaraq, o, vəziyyəti dəyişdirmək üçün Ukraynanın 2026-cı ilə qədər təxminən 7 milyon drona ehtiyacı olduğunu göstərib. İran eyni vaxtda ən çox dronun yerləşdirilməsinə görə rekorda malikdir - 800. Lakin, məsələn, ABŞ-dan PUA alınarsa, ölkə avtomatik olaraq ABŞ-ın girovuna çevrilir, çünki pilotsuz sistemlər ABŞ peyk sistemləri vasitəsilə idarə olunur. Bu o deməkdir ki, alıcı ölkənin və ABŞ-ın maraqları toqquşduğu təqdirdə ABŞ onları bağlaya bilər. İkinci vacib sahə əks tədbirlərdir. Üçüncü sahə böyük həcmdə məlumatlarla işləməkdir, çünki müasir dron müharibəsi çoxlu miqdarda məlumatların toplanmasını və emalını tələb edir. Bu, kiçik ölkələrin imkanlarından kənardır.Ermənistanın diqqətini hansı sahələrə yönəltməli olduğu ilə bağlı suala cavab olaraq ekspert qeyd edib ki, Türkiyə, Azərbaycan və İran kimi qonşu ölkələr PUA texnologiyasını fəal şəkildə inkişaf etdirirlər. O, xatırladıb ki, Azərbaycan ilk dəfə 2016-cı ildə Ermənistanın işğal etdiyi ərazilərdəki silahlı qüvvələrinə qarşı PUA-lardan istifadə edib. "Bu, Ermənistan üçün pilotsuz uçuş aparatlarının (PUA) imkanlarını inkişaf etdirməli olduğuna dair ilk xəbərdarlıq siqnalı idi. 2020-ci ildə Azərbaycanla Ermənistan arasında böyük bir müharibə baş verdi. Burada Azərbaycan zərbə və kəşfiyyat PUA-larından istifadə etdi", - deyə ekspert sadalayıb. O, əlavə edib ki, "Bayraktar"lar effektiv şəkildə uçub və hərbi personala və avadanlıqlara zərbələr endirib.

Paralellər aparan ekspert qeyd edib ki, İkinci Hərbi Əməliyyatın əvvəlində Kiyev bu yolu tutub və Rusiya Silahlı Qüvvələrinə qarşı ilk aylarda çox sayda PUA-lardan istifadə edib.Ermənistanın "inkişaf yolu"ndan danışan Kondratyev ilk növbədə Silahlı Qüvvələrin ayrıca bir qolunun yaradılmasını, personalın təlimini, yalnız PUA-lardan daha çox şeyə diqqət yetirməyi, əks tədbirlər üzərində işləməyi və səhvləri təkrarlamamaq üçün Rusiyanın təcrübəsini öyrənməyi tövsiyə edib. O, həmçinin ağır, bahalı dronlara güvənməyin strateji səhv olacağına inanır: "Bundan əlavə, qanunvericilik bazasının hazırlanması vacibdir və bu işə indi başlamaq lazımdır, əks halda biz əbədi olaraq geridə qalma və yarışda kənar şəxs kimi nəticələnmə riski ilə üzləşirik".

Ermənistan və Rusiya mütəxəssisləri arasında əlaqələrin olub-olmadığı və Rusiyadan satınalmalar barədə hər hansı bir məlumatın olub-olmadığı soruşulduqda, ekspert qeyd edib ki, o, belə bir məlumatı mediada və ya rəsmi hesabatlarda görməyib. "Çox güman ki, belə bir əlaqə yoxdur. Son nəşrlər göstərir ki, Ermənistan Silahlı Qüvvələri ABŞ-dan təxminən 20 təyyarə tipli pilotsuz uçuş aparatı alıb. Ermənistan Silahlı Qüvvələri Qərb şirkətlərinə baxır", Kondratyev bildirib.Lakin onun sözlərinə görə, hətta PUA-ların hazırlanmasında ən qabaqcıl ölkələr belə onları Çin komponentlərindən yığır və öz proqram təminatlarını yükləyirlər. Bu o deməkdir ki, hərbi dronların yaradılması üçün komponentlər Çin bazarlarında asanlıqla mövcuddur. "Rusiya Silahlı Qüvvələrinin Ermənistana hər hansı bir texnologiya ötürməsi ehtimalı azdır. Əgər Ermənistan Amerika dronlarını alırsa, deməli, onlar ittifaq yolunu seçiblər", - Maksim Kondratyev yekunlaşdırıb.

***V.VƏLİLİ***

SON SƏHİFƏ
SƏS
1 may
2026-cı il

# Antikorrupsiya davranış modelinin formalaşdırılması ilə bağlı maarifləndirici tədbir keçirilib

***24 aprel 2026-cı il tarixində Dövlət Gömrük Komitəsinin Tibbi Xidmət İdarəsinin Elmi-Təcrübi və Tədris Mərkəzinin təşkilatçılığı ilə Mərkəzi Gömrük Hospitalında "Dövlət Gömrük Komitəsinin Tibbi Xidmət İdarəsinin antikorrupsiya davranış modelinin formalaşdırılması ilə bağlı 2026-cı il üçün Fəaliyyət Planı" üzrə İllik Maarifləndirici Tədbirlər Planına uyğun növbəti maarifləndirici tədbir həyata keçirilib.***






Tədbirdə Dövlət Gömrük Komitəsinin Tibbi Xidmət İdarəsinin rəis müavini Şahlar Mirqasım, Mərkəzi Gömrük Hospitalının rəis müavini Nahidə Mahmudova, Xəstə Xidmətləri şöbəsinin rəisi Cəmilə İsmayılova, Sığorta şöbəsinin rəisi İlahə Məmmədova, İT şöbəsinin rəisi Bəhruz Muradov, məsul tibb bacıları, rezidentlər və əməkdaşlar iştirak ediblər.

Tədbirdə salamlama nitqi ilə çıxış edən Dövlət Gömrük Komitəsinin Tibbi Xidmət İdarəsinin rəis müavini Şahlar Mirqasım səhiyyə sahəsində korrupsiya ilə mübarizənin pasiyentlərin əlçatan, bərabər və keyfiyyətli tibbi xidmətlər əldə etməsində mühüm rol oynadığını vurğulayaraq, bu istiqamətdə sistemli yanaşmanın və institusional tədbirlərin gücləndirilməsinin vacibliyini qeyd edib.

Daha sonra Mərkəzi Gömrük Hospitalının Xəstə Xidmətləri şöbəsinin rəisi Cəmilə İsmayılova "Korrupsiya ilə mübarizədə Xəstə xidmətləri şöbəsinin işinin təşkili və bu sahədə zəruri addımlar" mövzusunda çıxış edərək pasiyentyönümlü xidmətlərin təşkili zamanı şəffaflığın təmin olunmasının, xidmətlərə bərabər çıxış imkanlarının yaradılmasının və etik davranış prinsiplərinə riayət edilməsinin korrupsiya risklərinin azaldılmasında mühüm rol oynadığını diqqətə çatdırıb. O, bu sahədə növbəlilik sisteminin düzgün qurulmasının, pasiyent müraciətlərinin operativ və obyektiv şəkildə cavablandırılmasının, həmçinin xidmət proseslərinin standartlaşdırılmasının əhəmiyyətini vurğulayıb.

Sığorta şöbəsinin rəisi İlahə Məmmədova isə "Sığorta şirkətləri və pasiyentlərlə iş sahəsində keyfiyyətli xidmətin təşkili" mövzusundakı çıxışında sığorta şirkətləri və pasiyentlərlə iş prosesində şəffaflıq, düzgün sənədləşmə və qarşılıqlı etimadın təmin edilməsinin vacibliyindən bəhs edib. O, sığorta mexanizmlərinin düzgün tətbiqinin, xidmətlərin əsaslandırılmış şəkildə təqdim olunmasının və bütün əməliyyatların aydın uçotunun aparılmasının korrupsiya risklərinin minimuma endirilməsinə xidmət etdiyini qeyd edib.

İT şöbəsinin rəisi Bəhruz Muradov "Tibb müəssisəsində korrupsiya ilə mübarizədə elektron xidmətlərin və rəqəmsallaşmanın vacibliyi" mövzusunda çıxış edərək tibb müəssisələrində korrupsiya ilə mübarizədə rəqəmsallaşmanın roluna toxunub, elektron növbə sistemləri, tibbi informasiya sistemləri və nağdsız ödəniş mexanizmlərinin tətbiqinin şəffaflığın artırılmasına və insan faktorundan irəli gələn risklərin azaldılmasına imkan yaratdığını bildirib. O, həmçinin bütün əməliyyatların elektron mühitdə qeydə alınmasının və izlənilə bilməsinin hesabatlılığın gücləndirilməsində mühüm rol oynadığını vurğulayıb. Tədbir çərçivəsində iştirakçılar arasında mövzu ətrafında müzakirələr aparılıb, suallar cavablandırılıb və səsləndirilən təkliflər dinlənilib. Sonda qeyd olunub ki, Mərkəzi Gömrük Hospitalında davamlı olaraq həyata keçirilən bu cür maarifləndirici tədbirlər səhiyyə sistemində şəffaflığın artırılması, etik davranış mühitinin gücləndirilməsi və korrupsiya risklərinin qarşısının alınması baxımından mühüm əhəmiyyət kəsb edir.


## "SƏS" qəzetinə abunə kampaniyası davam edir!



*«SƏS» QƏZETİNƏ ABUNƏ OLMAQ İSTƏYƏNLƏR AŞAĞIDAKI YAYIM ŞİRKƏTLƏRİ İLƏ ƏLAQƏ SAXLAYA BİLƏRLƏR*

1. Azərpoçt Poçtdaşıma Mərkəzi – 0125984955, 0552004544
2. Mətbuat Yayım MMC – 0124411991, 0124404694
3. Səma Mətbuat Yayım – 0125940252, 0503336969
4. Pressaİnform MMC – 0125115191, 0504560835, 0553156002
5. Qaya Mətbuat yayım – 0125667780, 0502352343
6. Ziya LTD – 0124977696, 0503067744
7. Bakmətbuat MMC 0502644010

1 nüsxə 1 aylığı 8 AZN
6 aylıq 48 AZN
1 illik 96 AZN

ABUNƏÇİLƏRİMİZİN XİDMƏTİNDƏYİK
Müraciət, şikayət, yazı, təbrik və başsağlıqlarınızı dərc etməyə hazırıq!


# Qonşu səs-küy salırsa, necə cərimələnə bilər?

***"İnzibati Xətalar Məcəlləsinin 521-ci maddəsində məişət səs-küyünə qarşı mübarizə qaydalarının pozulması ilə bağlı müddəalar öz əksini tapmışdır". Bu sözləri SİA-ya açıqlamasında vəkil Turan Abdullazadə deyib.***



Onun sözlərinə görə, bu norma vətəndaşların rahat istirahət hüququnun qorunmasına, xüsusilə gecə saatlarında ictimai asayişin təmin olunmasına xidmət edir və yaşayış mühitində səs-küyün minimuma endirilməsini hədəfləyir: "Mənzillərdə, yaşayış evlərinin girişlərində və həyətlərində, küçələrdə, istirahət yerlərində və digər ictimai məkanlarda gecə vaxtı saat 24:00-dan 07:00-dək səs-küy salmağa, ucadan mahnı oxumağa, musiqi alətlərini yüksək səslə çalmağa, televizorları, radioqəbulediciləri,



maqnitofonları və digər texniki vasitələri gur səslə işlətməyə, eləcə də məişət səs-küyünə qarşı mübarizə tələblərini başqa üsullarla pozmağa görə məsuliyyət nəzərdə tutulur. Bu cür hərəkətlər ətraf mühitdə yaşayan insanların dincəlmək hüququna maneə yaradır və sosial narazılığa səbəb ola bilər.

Qanunvericiliyə əsasən, qeyd olunan hallara yol verən fiziki şəxslər yüz əlli manatdan iki yüz manatadək məbləğdə, vəzifəli şəxslər isə iki min manatdan iki min beş yüz manatadək məbləğdə cərimə edilir. Bu cərimələr preventiv xarakter daşıyır və vətəndaşların davranışlarına təsir etməklə hüquq pozuntularının qarşısını almağa yönəlib. Eyni zamanda, bu maddədə nəzərdə tutulmuş inzibati xətalar haqqında işlərə Azərbaycan

## VƏKİL AÇIQLADI

Respublikasının Daxili İşlər Nazirliyi baxır. Bu isə o deməkdir ki, vətəndaşlar belə hallarla qarşılaşdıqda hüquq mühafizə orqanlarına müraciət edə və qanun çərçivəsində tədbir görülməsini tələb edə bilərlər".

***Günel Fərzəliyeva***


*Baş redaktor:*
**Bəhruz Quliyev**

Ünvanımız:
**Bakı şəhəri, Üzeyir Hacıbəyli küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**sesmediaqrup@gmail.com**
**sesqazeti@gmail.com**
**"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.**
**QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR**
**Tel: 598-33-90**
**Faks: 493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

**Qəzet həftədə iki dəfə nəşr olunur**
**Tiraj: 2000**